**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

**№** 057/457

**Bakı şəhəri** "25" avqust 2025-ci il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2025-ci il 15 – 22 avqust tarixli rəsmi məlumatlarına əsasən, Mərakeş Krallığının Beni Mellal-Henifra (Beni Mellal-Khenifra), Rabat-Sale-Kenitra (Rabat-Sale-Kenitra) regionlarında, Sloveniya Respublikasının Qorişka (Goriska) regionunda **blutanq** xəstəliyi, Misir Ərəb Respublikasının Əl Buheyrə (Al Buhayrah) vilayətində, İndoneziya Respublikasının Açeh (Aceh), Şərqi Yava (Jawa-Timur), Banka-Belitunq (Bangka Belitung), Banten (Banten), Bengkulu (Benqkulu), Qərbi Yava (Jawa Barat), Qorontalo (Gorontalo), Cokyakarta (Yogyakarta), Mərkəzi Yava (Jawa Tengah), Qərbi Kalimantan (Kalimantan Barat), Mərkəzi Kalimantan (Kalimantan Tengah), Şərqi Kalimantan (Kalimantan Timur), Riau (Riau), Qərbi Sulavesi (Sulawesi Barat), Cənubi Sulavesi (Sulawesi Selatan), Mərkəzi Sulavesi (Sulawesi Tengah), Cənub-Şərqi Sulavesi (Sulawesi Tenggara), Qərbi Sumatra (Sumatera Barat), Sumatera Utara (Sumatera Utara) əyalətlərində **dabaq** xəstəliyi, Amerika Birləşmiş Ştatlarının Kaliforniya (California) ştatında, Argentina Respublikasının Buenos Ayres (Buenos Aires) əyalətində isə **yüksək patogen quş qripi** (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

1. ÜHST-nin Mərakeş Krallığının Beni Mellal-Henifra, Rabat-Sale-Kenitra regionlarında, Sloveniya Respublikasının Qorişka regionunda blutanq xəstəliyinin, Misir Ərəb Respublikasının Əl Buheyrə vilayətində, İndoneziya Respublikasının Açeh , Şərqi Yava , Banka-Belitunq , Banten, Bengkulu, Qərbi Yava, Qorontalo, Cokyakarta, Mərkəzi Yava, Qərbi Kalimantan, Mərkəzi Kalimantan, Şərqi Kalimantan, Riau, Qərbi Sulavesi, Cənubi Sulavesi, Mərkəzi Sulavesi, Cənub-Şərqi Sulavesi, Qərbi Sumatra, Sumatera Utara əyalətlərində dabaq xəstəliyinin, Amerika Birləşmiş Ştatlarının Kaliforniya ştatında və Argentina Respublikasının Buenos Ayres əyalətində YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

2. Mərakeş Krallığının Beni Mellal-Henifra, Rabat-Sale-Kenitra regionlarında və Sloveniya Respublikasının Qorişka regionunda, zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatdan 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

3. Misir Ərəb Respublikasının Əl Buheyrə vilayətində və İndoneziya Respublikasının Açeh , Şərqi Yava , Banka-Belitunq , Banten, Bengkulu, Qərbi Yava, Qorontalo, Cokyakarta, Mərkəzi

ƏSLİ İLƏ DÜZDÜR

aparıcı məsləhətçi
Eminova O. V. 25.08.25

Yava, Qərbi Kalimantan, Mərkəzi Kalimantan, Şərqi Kalimantan, Riau, Qərbi Sulavesi, Cənubi Sulavesi, Mərkəzi Sulavesi, Cənub-Şərqi Sulavesi, Qərbi Sumatra, Sumatera Utara əyalətlərində, zonalaşma prinsipi nəzərə alınmaqla, dabaq xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədən cütdırnaqlı heyvanların (iri və xırdabuynuzlu heyvanlar, donuz, dəvə və s.), habelə onlara aid xammal və məhsulların idxalına və tranzit daşınmasına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.8-ci Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

4. Amerika Birləşmiş Ştatlarının Kaliforniya ştatında və Argentina Respublikasının Buenos Ayres əyalətində, zonalaşma prinsipi nəzərə alınmaqla, YPQQ xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

5. Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci və 3-cü bəndlərində adıçəkilən inzibati ərazi vahidlərinin, 4-cü bəndində isə qeyd olunan ölkələrin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

6. Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərində qeyd olunan inzibati ərazi vahidlərindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

7. Bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidlərindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

8. Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

9. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

10. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

aparıcı məsləhətçi
Eminova Ə.V. [signature] 25.08.25